Tarix və onun problemləri, №4 2009

**ULDUZ PAŞAYEVA**
*BDU, «Azərbaycanşünaslıq» Elmi Tədqiqat Mərkəzinin böyük elmi işçisi*

# ERMƏNISTAN- AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQIŞƏSINDƏ ATƏT-IN MÖVQEYINƏ DAIR

1992-ci il yanvar ayının 30-da Azərbaycan Respublikası Avropada Təhlükəsizlik və Əməkdaşlığa dair Müşavirənin (ATƏM) üzvü oldu və həmin il iyulun 8-də ATƏM-in Helsinkidə (Finlyandiya) keçirilən Zirvə toplantısında bərabərhüquqlu üzv kimi iştirak etdi. Bununla da, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ATƏM-in də diqqət obyektinə çevrildi. Belə ki, ATƏM-in Yüksək Vəzifəli Şəxslər Komitəsinin (YVŞK) fevral ayının 27-28-də Praqada (Çexiya), mart ayının 13-14-də və 23-24 də, may ayının 1-də Helsinkidə keçirilən iclaslarında Dağlıq Qarabağın Azərbaycan Respublikasına mənsub olması, sərhədlərin dəyişdirilməməsi şərti ilə münaqişənin sülh yolu ilə həlli, hərbi əməliyyatların dərhal dayandırılması və atəşkəsə nail olunması yolları müzakirə olundu.

1992-ci il mart ayının 24-də ATƏM-in Nazirlər Şurası Helsinkidə çağırılmış fövqəladə iclasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hərtərəfli tənzimlənməsinə nail olmaq üçün Minskdə konfrans keçirmək barədə razılaşma əldə etdilər. Ermənistan, Azərbaycan, Belarus, keçmiş Çex və Slovak Federal Respublikası, Fransa, Almaniya, İtaliya, Rusiya Federasiyası, İsveç, Türkiyə və Amerika Birləşmiş Ştatları konfransda iştirak etməyə razılıq verdilər. Beləliklə, adlarını qeyd etdiyimiz bu 11 dövlətin iştirakı ilə Minsk qrupu yaradıldı. Qrupun əsas vəzifəsi Ermənistan – Azərbaycan münaqişəsini nizama salmaq, Dağlıq Qarabağ problemini dinc vasitələrlə birdəfəlik həll etməkdən ibarət idi. Lakin Minsk qrupunun yarandığı vaxtdan etibarən münaqişənin tənzimlənməsi məqsədilə göstərdiyi səylər gözlənilən nəticəni vermədi. Beynəlxalq ictimaiyyətin təcavüzkara qarşı təsirli tədbirlər görməməsi Ermənistanın işğalçılıq siyasətinin daha da genişlənməsinə səbəb oldu. 1993-cü ilin payızına qədər Dağlıq Qarabağ və onun ətrafındakı yeddi rayon Ermənistan tərəfindən işğal olundu.

1993-cü ilin noyabrında ATƏM-in Minsk qrupunun üzvləri işğalın genişlənməsi ilə bağlı, həmçinin Dağlıq Qarabağ probleminin həlli haqqında bəyanat verdilər. Bu bəyanatlarda döyüş əməliyyatları və yeni ərazilərin ələ keçirilməsi pislənilir və ATƏM-in prinsiplərinin pozulması kimi qiymətləndirilirdi. Ərazi tutulmasından (yəni işğalından – U.P.) beynəlxalq aləmdə tanınmaq, status qazanmaq və s. məqsədlərlə istifadə olunmanın yolverilməzliyi göstərilir, işğalçıların Horadiz və Zəngilandan birtərəfli qaydada çıxması, atəşin dayandırılması, işğal olunmuş ərazilərin boşaldılması, münaqişə bölgəsində beynəlxalq müşahidəçilərin yerləşdirilməsi və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələrinin yerinə yetirilməsi tələb olunur, güc tətbiq etməkdən imtina edilməsi irəli sürülür, qaçqınlara yardım etmək zərurəti və sazişi pozan tərəfin məsuliyyət daşıdığı göstərilirdi.

1994-cü il dekabr ayının 5-6-da Budapeştdə (Macarıstan) keçirilmiş Sammit ATƏM-in tarixində mühüm bir dövrün başlanğıcı oldu. Budapeşt Zirvə toplantısına qədər əsas vəzifəsi Avropada təhlükəsizlik və əməkdaşlıq məsələləri üzrə məsləhətləşmələr aparmaq olan ATƏM, artıq yeni Avropanın sivilizasiyalı birgəyaşayış qaydalarını müəyyən edən, sülhün, demokratiyanın və insan hüquqlarının qorunmasını təmin edən, regionun təhlükəsizlik və qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərini həyata keçirən bir təşkilata – özünüidarə mexanizmləri olan ümumavropa institutuna çevrildi. Bu sammitdə qəbul edilmiş "Yeni dövrdə əsl tərəfdaşlığa doğru" adlı Bəyannaməyə əsasən

ATƏM 1995-ci il yanvarın 1-dən Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) adlandırıldı. Əslində bu sənəd ATƏM-in təşkilati cəhətdən yeniləşməsi, onun nüfuzunun artması prosesinin başlanğıcı demək idi. Təsadüfi deyil ki, məhz Budapeştdə ilk dəfə Avropanın ümumi təhlükəsizliyini təmin etmək üçün ATƏT-in sülhməramlı qüvvələrinin yaradılması və münaqişəli ərazilərə göndərilməsi qərara alındı.

Qeyd edək ki, Budapeşt Sammiti həm də Dağlıq Qarabağda sülhün bərqərar olması üçün növbəti addım oldu. Belə ki, Budapeşt Zirvə toplantısında ilk dəfə olaraq Dağlıq Qarabağ problemi xüsusi bir məsələ kimi ayrıca gündəliyə salındı və müzakirə olundu. Qəbul edilən sənədin "Regional məsələlər" hissəsinə "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi" adlı bölmə əlavə olundu. İştirakçı dövlətlər ATƏT rəhbərliyi altında olan ilk sülhməramlı çoxmillətli hərbi hissənin Dağlıq Qarabağ bölgəsinə göndərilməsi barədə razılıq əldə etdilər. Budapeşt Sammitinin nəticələrinə əsasən 1994-cü il dekabr ayının 20-də Vyanada (Avstriya) Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə ATƏT-in üzv dövlətlərinin təyin etdiyi hərbi nümayəndələrin təmsil olunduğu Yüksək Səviyyəli Planlaşdırma Qrupu (YSPQ) təsis olundu.

Budapeşt Zirvə toplantısında qəbul edilən ən mühüm qərarlardan biri də Minsk Konfransı və Qrupunda həmsədrlik institutunun yaradılması ilə bağlı oldu. Bu funksiya Rusiya və Finlandiyaya tapşırıldı.[17]

Ümummilli Lider Heydər Əliyev Minsk qrupunun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllindəki roluna toxunaraq demişdi: "ATƏT-in Minsk qrupu, Minsk konfransı Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsinə nail olmaq üçün daha böyük imkanlara malikdir" (1,s.49).

Budapeşt Sammitindən sonra Minsk qrupunun fəaliyyətində xüsusi canlanma baş verdi. Minsk qrupunun həmsədrləri münaqişə tərəfləri arasında razılaşma əldə etmək məqsədilə dəfələrlə Azərbaycan və Ermənistana, həmçinin münaqişə ocağı olan Dağlıq Qarabağa səfərlər etdilər. Münaqişə tərəfləri arasında yüksək səviyyəli görüşlər təşkil olundu.

ATƏT-in 1996-cı il dekabrın 2-3-də Lissabonda (Portuqaliya) 54 dövlət başçısının iştirakı ilə keçirilən növbəti Sammitində də Dağlıq Qarabağ münaqişəsinin nizamlanması əsas müzakirə mövzularından biri oldu. ATƏT-in fəaliyyətdə olan sədrinin bəyanatında son iki il ərzində Dağlıq Qarabağ münaqişəsinin və Azərbaycan Respublikasının ərazi bütövlüyü məsələsinin həllində heç bir irəliləyiş əldə edilmədiyi, məsələnin nizamlanması prinsiplərinə dair tərəflərin mövqelərinin yaxınlaşdırılması istiqamətində Minsk konfransı həmsədrlərinin səylərinin uğursuz olduğu etiraf edilirdi.

Burada çıxış edən Azərbaycan dövlətinin Ümummilli Lideri Heydər Əliyev Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətləri görüş iştirakçılarının diqqətinə çatdırdı: "Ermənistan qeyri-konstruktiv mövqe tutub. Ermənistan Dağlıq Qarabağı müstəqil dövlət etmək istəyir. Biz heç vaxt razı ola bilmərik ki, Dağlıq Qarabağ dövlət müstəqilliyi əldə etsin, Azərbaycan ərazisində ikinci erməni dövləti yaransın" (1,s.50).

Lissabon Zirvə görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair ATƏT-in iştirakçı dövlətləri tərəfindən (Ermənistandan başqa) aşağıdakı prinsiplərə razılıq verildi:

1.Ermənistan Respublikasının və Azərbaycan Respublikasının ərazi bütövlüyü;

2.Dağlıq Qarabağa Azərbaycanın tərkibində ən yüksək özünüidarəetmə statusunun verilməsi;

3. Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təminatı.

---

[17] 1995-1997-ci illərdə İsveç və Rusiya həmsədr olmuşlar.1997-ci il yanvarın 1-dən ATƏT-in Minsk Qrupuna həmsədrlik funksiyasını ABŞ,Rusiya və Fransa həyata keçirir.

Lissabon Zirvə görüşündə Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyevin diplomatiyası sayəsində Azərbaycanın dünya birliyi tərəfindən müdafiə olunmasına nail olundu.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı növbəti addım isə ATƏT-in 1999-cu il noyabrın 19-da İstanbulda (Türkiyə) keçirilən Zirvə görüşündə atıldı. Burada münaqişə ilə bağlı yaranan vəziyyət və son hadisələr haqqında ATƏT-in Minsk qrupunun həmsədrlərinin məruzələri dinlənildi, münaqişənin dinc və siyasi yollarla həlli istiqamətində bir sıra mühüm təkliflər irəli sürüldü və Bəyannamə qəbul edildi.

1993-2000-ci illər ərzində Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyev ATƏT rəhbərləri və Minsk qrupunun təmsilçiləri ilə 130-dan çox görüş keçirmiş, həmçinin ATƏT-ə üzv olan dövlətlərin liderləri ilə aparılan danışıqlar zamanı Dağlıq Qarabağ münaqişəsinin həllinə çalışmışdır.

2001-ci il dekabrın 4-də ATƏT-in Nazirlər Şurasının Buxarestdə (Rumıniya) keçirilən 9-cu və 2002-ci il dekabrın 7-də ATƏT-in Nazirlər Şurasının Portoda (Benin) keçirilən 10-cu görüşlərindəki Bəyanatlarında deyilirdi: "Biz tərəflər arasında intensivləşdirilmiş dialoqa və Minsk qrupunun həmsədrlərinin fəal köməyinə baxmayaraq, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının əldə edilmədiyindən dərin təəssüf hissi keçiririk. Biz bir daha təsdiq edirik ki, bu uzanmış münaqişənin təcili nizamlanması Cənubi Qafqaz regionunda möhkəm sülh, təhlükəsizlik, sabitlik və əməkdaşlığa kömək edəcək. Biz sülh dialoqunun davam etdirilməsi vacibliyini yenidən bəyan edirik və tərəfləri münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında tezliklə həll edilməsi istiqamətindəki səylərini davam etdirməyə çağırırıq" ...(4).

Göründüyü kimi, ATƏT-in süni şəkildə yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı konkret və ədalətli addımlar atmaması problemin həllini uzadır, həm də mürəkkəbləşdirir. Halbuki, Azərbaycan nümayəndə heyətinin ATƏT-in Nazirlər Şurasının 10-cu görüşünün indi qəbul edilmiş qərarı ilə əlaqədar Helsinki məsləhətləşmələrinin Yekun tövsiyələrinin 6-cı fəsilinin 79-cu paraqrafına müvafiq olaraq, izahedici bəyanatında qeyd edildiyi kimi, Azərbaycan Respublikası ATƏT-in aşağıdakı prinsiplərindən çıxış edərək Ermənistan və Azərbaycan arasında münaqişəyə dair bəyanat üzrə konsensusa qoşulmuşdur: "İştirakçı dövlətlər hər bir iştirakçı dövlətin ərazi bütövlüyünə hörmət edəcəklər. Beləliklə, onlar istənilən iştirakçı dövlətin ərazi bütövlüyü, siyasi müstəqilliyi və ya birliyinə qarşı Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin məqsəd və prinsiplərinə uyğun olmayan hər hansı hərəkətdən və xüsusilə də hədə və ya gücdən istifadəni təşkil edən hər hansı belə hərəkətdən çəkinəcəklər. İştirakçı dövlətlər bir-birinin ərazisini beynəlxalq hüquqa zidd olaraq hərbi işğal və ya digər birbaşa və ya dolayı yolla güc tədbirləri obyekti etməkdən o cümlədən belə tədbirlər və ya onlarla hədələmək vasitəsilə ələ keçirməkdən çəkinəcəklər. Heç bir belə işğal və ya ələ keçirmə qanuni sayılmayacaq" (3).

Bundan başqa, Azərbaycan Respublikası bildirir ki, Ermənistan və Azərbaycan arasında münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyünə tam hörmət edilməsi əsasında həll oluna bilər ki, bu da aşağıdakıları nəzərdə tutur:

-Ermənistan tərəfindən Dağlıq Qarabağ regionu onun ayrılmaz hissəsi olan Azərbaycanın ərazi bütövlüyünün birmənalı olaraq tanınması;

-erməni işğalçı qüvvələrinin Azərbaycanın bütün ərazilərindən, o cümlədən Dağlıq Qarabağ regionundan dərhal və qeyd-şərtsiz çıxarılması;

-zorla qovulmuş azərbaycanlı əhalinin öz torpaqlarına təhlükəsiz şəraitdə qayıtması üçün bütün əlverişli şərtlərin yaradılması.

Bununla yanaşı Azərbaycan Respublikası bildirir ki, Azərbaycanın Dağlıq Qarabağ regionunda yaşayan erməni icması üçün işlənib hazırlanacaq hər hansı özünüidarə statusu yalnız Azərbaycanın ərazi bütövlüyünə tam hörmət edilməsi əsasında mümkün olacaq.

Azərbaycan Respublikasının Parlament nümayəndə heyətinin səyi ilə AŞPA-da obyektiv müsbət rəyin formalaşması nəticəsində 2005-ci il yanvarın 25-də qəbul edilən sənəd (1416 və 1690 saylı qətnamələr) ölkəmiz üçün mühüm əhəmiyyətə malik oldu.

ATƏT-in Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyinə aydınlıq gətirmək üçün 15 bənddən ibarət olan 1416 saylı qətnaməyə diqqət yetirək. Tövsiyə və xahişlərdən ibarət olan qətnamənin birinci bəndində Parlament Assambleyasının "***Dağlıq Qarabağ münaqişəsinin həll olunmamış qalmasından təəssüfləndiyi bildirilir və mövcud vəziyyət, yəni yüz minlərlə insanın hələ də köçkün, qaçqın olduğu və acınacaqlı şəraitdə yaşadığı, Azərbaycan ərazisinin əhəmiyyətli hissələrinin hələ də erməni qüvvələrinin işğalı altında olduğu və separatist qüvvələrin hələ də Dağlıq Qarabağ bölgəsinə nəzarət etdikləri***" qeyd edilir (10).

Göründüyü kimi, 1994-cü ilin mayında atəşkəs elan olunduqdan sonra, münaqişənin sülh yolu ilə həll olunması üçün Azərbaycanla Ermənistan arasında danışıqların aparılmasına baxmayaraq, bu prosesdə vasitəçi rolunu oynayan ATƏT hələ də münaqişə tərəfləri kimi Azərbaycanı və separatçı erməni qüvvələrini görür. Münaqişə tərəflərİ düzgün müəyyənləşdirilmədiyindən, ATƏT-in qətnamələrində Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipi də "yaddan çıxarılır" və ya sadəcə sual altında qoyulur. Belə ki, qətnamənin ikinci bəndində "***Assambleya hərbi əməliyyatların və bundan əvvəl başlamış kütləvi etnik düşmənçiliyin qorxunc etnik təmizləmə anlayışını xatırladan genişmiqyaslı etnik qovulmaya və monoetnik ərazilərin yaranmasına gətirib çıxarması ilə bağlı öz narahatlığını ifadə edir. Assambleya bir daha təsdiq edir ki, bir dövlətin ərazisindən regional ərazinin ayrılması və müstəqilliyi etnik qovulmaya və bu cür ərazinin digər dövlətə de-fakto birləşdirilməsinə gətirib çıxaran silahlı münaqişə yolu ilə deyil, yalnız bu ərazinin əhalisinin demokratik dəstəyinə əsaslanan qanuni və dinc proses vasitəsilə əldə oluna bilər. Assambleya üzv dövlət tərəfindən xarici ərazinin işğalının həmin dövlətin Avropa Şurasının üzvü kimi öz üzərinə götürdüyü öhdəlikləri ciddi şəkildə pozması demək olduğunu xatırladır və münaqişə ərazisindən köçkün düşmüş şəxslərin öz evlərinə təhlükəsiz və ləyaqətlə qayıtması hüququnu bir daha təsdiq edir" (10).***

Deməli, assambleya bir dövlətin ərazisindən regional ərazinin ayrılmasının silahlı münaqişə yolu ilə deyil, qanuni və dinc proses vasitəsilə əldə oluna bilinəcəyini mümkün hesab edir. Bir üzv dövlət tərəfindən xarici ərazinin, yəni Ermənistan tərəfdən digər üzv dövlətin – Azərbaycanın ərazisinin işğalının həmin dövlətin Avropa Şurasının üzvü kimi öz üzərinə götürdüyü öhdəlikləri ciddi şəkildə pozması demək olduğunu isə sadəcə xatırladır.

Daha sonra qətnamədə münaqişənin sülh yolu ilə həlli vasitələri axtarılır. Assambleya Azərbaycan və Ermənistanı Assambleya daxilində, eləcə də Qafqaz Dördlüyünün Parlament Spikerlərinin görüşləri kimi digər forumlarda ikitərəfli parlamentlərarası əməkdaşlığı gücləndirməklə özləri arasında siyasi barışığı təşviq etməyə, Azərbaycan Hökumətini bölgənin gələcək statusu ilə bağlı Dağlıq Qarabağ bölgəsinin hər iki icmasının siyasi nümayəndələri ilə qeyd-şərtsiz əlaqə qurmağa çağırır. Ermənistan və Azərbaycana müraciət edərək, məktəblər, universitetlər və KİV vasitəsi ilə öz xalqları arasında qarşılıqlı barışığı, etimad yaradılmasını və qarşılıqlı anlaşmanı təşviq etməyə çağırır.

2005-ci il yanvar ayının 25-də ATƏT-in Parlament Assambleyası tərəfindən qəbul edilən 1690 saylı qətnamə də 1416 saylı qətnamənin təkrarı olaraq, tövsiyə xarakterli-

dir. Yenə də ATƏT-in və bu qurumda təmsil olunan əksər dövlətlərin Dağlıq Qarabağ münaqişəsinə dair düzgün və qəti mövqe nümayiş etdirmədiyinin şahidi oluruq.

2007-ci il noyabr ayının 29-da Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində növbəti addım atıldı. Belə ki, Madriddə (İspaniya) Minsk qrupu həmsədrləri münaqişə tərəflərinə "ATƏT-in Minsk qrupunun Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tövsiyələri" adlanan və daha çox Madrid prinsipləri kimi tanınan 11 bəndlik layihəni təqdim etdi (8). Burada aşağıdakı məsələlər öz əksini tapmışdı:

**ATƏT-in Minsk qrupunun Qarabağ münaqişəsi ilə bağlı tövsiyələri**

**Azərbaycan və Ermənistan hökumətlərinə**

1.2008-ci ilin seçkilərinə qədər aşağıdakı prinsiplərdən ibarət sənədi razılaşdırmaq:

a) təhlükəsizliyə və beynəlxalq sülhməramlıların yerləşdirilməsinə zəmanət verilməsi,

b)Ermənistan və Dağlıq Qarabağ silahlı qüvvələrinin Dağlıq Qarabağ ətrafında işğal olunmuş bütün ərazilərdən çıxarılması, **Kəlbəcər və Laçın** üçün xüsusi şərtlər olmaqla,

c) deportasiya olunmuş əhalinin qayıtması,

d)Dağlıq Qarabağın yekun statusunun sonda səsvermə ilə müəyyənləşdirilməsi; buna qədər müvəqqəti statusun təyin edilməsi,

d) bütün nəqliyyat və ticarət yollarının açılması.

2.Bütövlükdə sənəd üzrə konsensus alınmayanda razılaşdırılması mümkün olanı razılaşdırmaq və mübahisəli bəndləri dəqiqliklə göstərmək.

3.2008-ci ilin seçki kampaniyası dövründə siyasi xadimlərin sülhə və kompromislərin zəruriliyinə müsbət yanaşmasına şərait yaratmaq.

**Ermənistan və Azərbaycan hökumətlərinə, həmiçnin Dağlıq Qarabağın de-fakto hakimiyyətinə**

4.1994-cü ilin atəşkəsinə hörmət etmək, güc tətbiqindən çəkinmək, hərbi büdcələrin artırılmasına, qarşılıqlı ittihamlara, həmçinin barışmaz və təhrikçi ritorikaya son qoymaq.

5.Qeyri-rəsmi diplomatiyaya və yuxarıda göstərilən prinsiplər daxil olmaqla kompromis qərarlar haqda diskussiyalara yardım etmək, ölkə parlamentlərini belə diskussiyaların açılmasına həvəsləndirmək və azərbaycanlılarla ermənilər arasında əlaqələri asanlaşdırmaq.

6.Dağlıq Qarabağın de-fakto hakimiyyəti işğal olunmuş ərazilərin ermənilərlə məskunlaşdırılmasına,o cümlədən bu rayonlarda özəlləşdirmənin aparılmasına, infrastrukturun inkişaf etdirilməsinə və yerli strukturların yaradılmasına son qoymalıdır.

7.Azərbaycan Qarabağ azərbaycanlılarına öz icmalarının rəhbərini seçmək imkanı verməli, neft gəlirlərindən bütün vətəndaşların, o cümlədən deportasiya olunmuş şəxslərin yararlana bilməsi üçün şəffaflığın artırılmasına, korrupsiyanın azaldılmasına birgə səylər göstərməlidir.

**Minsk qrupunun həmsədrlərinə (Fransa, Rusiya və ABŞ) və geniş beynəlxalq ictimaiyyətə**

8.Əsas prinsiplərin razılaşdırlmasına nail olunması üçün birgə səyləri artırmaq, Ermənistanda və Azərbaycanda 2008-ci il prezident seçkilərindən sonra danışıqlar prosesini davam etdirmək və bu prosesdə meydana çıxacaq hər hansı fikir ayrılıqlarını dəqiq qeyd etmək.

9.Həmsədrlərin təmsilçilik səviyyəsini artırmaq, Ermənistan və Azərbaycanla ikitərəfli və çoxtərəfli münasibətlər zamanı Dağlıq Qarabağ probleminin nizamlanmasını əsas elementə çevirmək.

10.Danışıqların məzmunu haqqında daha çox informasiya dərc etmək və hədsiz nikbin bəyanatlarla gözləntiləri süni şəkildə şişirtməkdən qaçmaq.

**Avropa Birliyinə**

11. a) Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəliyinin rolunu artırmaq; nümayəndəlik Minsk prosesinin gedişini izləməli, bütün tərəflərlə əlaqə saxlamalı, Dağlıq Qarabağa səfərlər etməli, Azərbaycanda deportasiya olunmuş vətəndaşlarla görüşməli və Avropa Komissiyası ilə birgə münaqişə çərçivəsində zəruri maliyyələşdirmənin miqyasını qiymətləndirməlidir,
b) Avropa Qonşuluq Strategiyası proqramından və onun maliyyələşdirilməsi mexanizmlərindən istifadə etməklə etimadın möhkəmləndirilməsinə, həmçinin insan haqqlarına hörmətin və qanunun aliliyinin təmin olunmasına yönəlmiş institutların qurulmasına şərait yaratmaq.

Yuxarıda göstərilən və Madrid prinsipləri kimi tanınan 11 bəndlik layihə ilə tanışlıqdan sonra aydın olur ki, ATƏT-in Minsk Qrupu həmsədrləri keçən illər ərzində öz baxışlarında heç bir dəyişiklik etməmişlər. Yenə də təcavüzə məruz qalanla təcavüzkar arasında heç bir fərq qoyulmur. Əslində Madrid prinsipləri ATƏT-in Minsk qrupunun fəaliyyət göstərdiyi illərdə irəli sürdüyü və burada təmsil olunan dövlətlərin maraqlarına xidmət edən prinsip və tövsiyələrin daha yaxşı redaktə olunmuş variantından başqa bir şey deyil. Deməli, həmsədrlərin uzun illər ərzində axtardıqları ***"ədalətli və konstruktiv həll yolu"*** öz dövlətlərinin maraqlarının tam təmin olunmasından ibarətdir.

Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində növbəti addım 2008-ci il noyabrın 2-də Moskva şəhərində Rusiya Federasiyası Prezidentinin dəvəti və iştirakı ilə Azərbaycan Respublikası və Ermənistan Respublikası prezidentlərinin görüşü oldu. Həmin görüşün nəticəsi olaraq imzalanmış **Moskva Bəyannaməsində** Dağlıq Qarabağ münaqişəsinin vəziyyətini və onun siyasi vasitələrlə, ATƏT-in Minsk qrupunun həmsədrləri kimi Rusiyanın, ABŞ-ın və Fransanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında birbaşa dialoqun davam etdirilməsi yolu ilə həlli məsələləri ön plana çıxarıldı:

1.Bəyan edilir ki, münaqişənin beynəlxalq hüququn prinsipləri və normaları, bu çərçivələrdə qəbul olunmuş qərarlar və sənədlər əsasında siyasi yolla həlli ilə Cənubi Qafqazda vəziyyətin sağlamlaşmasına və regionda sabitliyin və təhlükəsizliyin bərqərar edilməsinin təmin olunmasına kömək edəcəklər ki, bu da regionda iqtisadi inkişaf və hərtərəfli əməkdaşlıq üçün əlverişli şərait yaradacaqdır.

2.ATƏT-in Minsk qrupu həmsədrlərinin münaqişənin siyasi yolla həllinin əsas prinsiplərinin işlənib hazırlanması məqsədi ilə 2007-ci ilin noyabr ayının 29-da Madriddə tərəflərlə keçirilmiş görüşü və sonrakı diskussiyalar nəzərə alınmaqla, həmsədrlərin vasitəçilik səylərinin davam etdirilməsinin böyük əhəmiyyətə malik olmasını təsdiq edirlər.

3.Razılaşırlar ki, münaqişənin sülh yolu ilə həllinə nail olunmasının bütün aspektləri və mərhələləri hüquqi öhdəliklər yaradan beynəlxalq təminatlarla müşayiət edilməlidir.

4.Azərbaycan və Ermənistan Respublikalarının prezidentləri Dağlıq Qarabağ münaqişəsinin siyasi yolla həllinin razılaşdırılması üzərində işi davam etdirməli, gələcəkdə yüksək səviyyədə təmasların artırılması barədə razılığa gəlməli və hər iki respublikanın xarici işlər nazirlərinə ATƏT-in Minsk qrupunun həmsədrləri ilə danışıqlar prosesində gələcək addımları fəallaşdırmalıdırlar.

5.Münaqişənin həllinə dair səylər kontekstində etimadın möhkəmləndirilməsi üçün tədbirlərin reallaşdırılmasına şərait yaradılmasının təşviq olunmasını vacib hesab edirlər (5).

Qeyd edək ki, Moskva Bəyannaməsi bir müddət cəmiyyətdə rezonansa səbəb oldu. Artıq uzun illərdir ki, həlli yolu "tapılmayan" münaqişədən yorulan insanlar Bəyannamənin Ermənistan-Azərbaycan,Dağlıq Qarabağ münaqişəsinin həllinə təkan verəcəyinə ümid edirdilər. Lakin bu da Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində sadəcə, növbəti addımlardan biri kimi tarixə düşdü.

Beləliklə, ATƏT-in Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı atdığı addımlar göstərir ki, o, bu münaqişəni, həmçinin Cənubi Qafqazdakı digər etnik münaqişələri özünün regiondakı iqtisadi və siyasi maraqlarının gerçəkləşməsinə mane olan ciddi əngəl kimi görür. Buna görə də həmin münaqişələrin kimin xeyrinə həll olunmasından asılı olmayaraq yalnız sülh yolu ilə həllinə maraq göstərir. Təsadüfi deyil ki, 2009-cu il fevralın 18-də Vyanada (Avstriya) Azərbaycanın, Gürcüstanın, Ermənistanın və ATƏT Parlament Assambleyasının nümayəndə heyətlərinin birgə görüşündə ATƏT Parlament Assambleyasının Dağlıq Qarabağ və Cənubi Qafqazdakı münaqişələr üzrə xüsusi nümayəndəsi Qoran Lenmarker qeyd etmişdir ki, "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün iki prinsip - ərazi bütövlüyü və millətlərin öz müqəddaratını təyin etməsi arasında balans tapılmalıdır" (6;7).

Təəssüflə qeyd etmək lazımdır ki, öz maraqlarından çıxış edən ATƏT-in və Minsk qrupu həmsədrlərinin təmsil etdiyi dövlətlərin bu iki prinsi - ərazi bütövlüyü və millətlərin öz müqəddaratını təyin etməsi arasındakı balans axtarışı hələ uzun illər davam edə bilər. Azərbaycanda isə hər il onlarla insan vətən – torpaq həsrətilə vəfat edir, onların sıralarını isə Qarabağsız böyüyən nəsil doldurur. Buna görə də Qarabağ münaqişəsinin tezliklə həll edilməsi Azərbaycan üçün olduqca vacibdir.

XIX-XX əsrlərdə torpaqlarının böyük hissəsini itirmiş Azərbaycanın artıq heç kimə "pay verəcək" torpağı yoxdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də qeyd etdiyi kimi, "Azərbaycan xalqı öz torpaqlarının işğalı ilə heç zaman razılaşmayacaq və ehtiyac yarandığı halda torpaqlarını hərb yolu ilə azad edəcək"(2, s.733).

### *ƏDƏBIYYAT:*

1.Həsənov Ə.Azərbaycan və ATƏT:Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda. Bakı,«İşıq» nəşriyyatı,1997,80 s.
2.Həsənov Ə.Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti.Bakı, Azərbaycan nəşriyyatı, 2005, 752 s.
3.ATƏT və Azərbaycan // www.mfa.qov.az/az/international/ orqanizations/osce.shtm
4.ATƏT-in Avropada təhlükəsizlik və əməkdaşlıq təşkilatının Nazirlər Şurasının görüşü //www.mfa.qov.az/az/international/ orqanizations/osce/07.shtml
5.Azərbaycan Respublikasının, Ermənistan Respublikasının və Rusiya Federasiyasının Bəyannaməsi//prezident.az/articles.php?item_id=20081103100538130&sec_id=140
6.Azərbaycan, Gürcüstan və Ermənistanın ATƏT PA-dakı nümayəndə heyətlərinin birgə görüşü //www.az.apa.az/xeber_Azerbaycan_ urcustan_ve_Ermenistanin_ 46768.html
7.Dağlıq Qarabağ münaqişəsi barədə. // http://news-az.trend.az/important/top/1414669.html
8.Madrid prinsipləri // http://xariciedebiyyat.azeriblog.com/2008/11/13/madrid-prinsipleri-uzechixdi
9.Münhen təhlükəsizlik konfransında Cənubi Qafqazda vəziyyətin müzakirəsi barədə //www.az.apa.az/news.php?id=145898
10.ПАСЕ-Резолюции Парламентской Ассамблеи Совета Европы № 1416 и № 1690. 2005-ый год. // www.mct.gov.az/?/ru/azerbaijan/2000/36

**УЛДУЗ ПАШАЕВА**
***Старший научный сотрудник научно-исследовательского центра «Азербайджановедения» Бакинского государственного университета.***

## РОЛЬ ОБСЕ В УРЕГУЛИРОВАНИИ АРМЯНО-АЗЕРБАЙДЖАНСКОГО, НАГОРНО-КАРАБАХСКОГО КОНФЛИКТА

В статье «Роль ОБСЕ в урегулировании Армяно-Азербайджанского, Нагорно-Гарабахского конфликта» раскрывается участие этой международной организации в решении данного конфликта. Минская группа ОБСЕ считает, что данный конфликт должен быть урегулирован на основе положения Заключительного Хельсинского акта-принципа территориальной це-

лостности, путем мирных переговоров, в соответствии с международными нормами, исключая какое-либо военное решение. Этому соответствуют и резолюции 1416 и 1690, принятые в 2005 г.и.т.д.

В статье показано взаимодействие государственных структур Азербайджанской Республики с Минской группой ОБСЕ.

**ULDUZ PASHAYEVA**
***the head of scientific collaborator in Science-search center of Azerbaijan Studies Center at Baku State University.***

## THE ROLE OF OSCE IN PEACEFUL SETTLEMENT OF ARMENIA-AZERBAIJAN, NAGORNO-KARABAKH REGIONAL CONFLICT

Present article is about "Role of OSCE in peaceful settlement between Armenian-Azerbaijan Nagorno-Qarabakh conflict" this article discovering the taken part by this international organization in decision to regional conflict. Minsk group OSCE considered that conflict should be settling by the main international normative form which was adjusted by the term of international condition's act-principles of territorial integrity, according to international norms with one exemption of no war decision. That is mainly accordance to resolution 1416 and 1690, which was accepted in 2005 year.

This article displaying the collaboration of state structure between Azerbaijan Republic and Minsk Group OSCE.

***Rəyçilər: t.e.n.H.O.Əhmədov, t.e.d.R.C.Süleymanov.***
***BDU-nun Tarix fakültəsi «Azərbaycanşünaslıq» Elmi Tədqiqat Mərkəzinin «Dünya azərbaycanlıları» bölməsinin 09 oktyabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №02).***